

■ Aynur Qafarlı

*Qafarlı Aynur Afət qızı 1976-cı ildə Şəkidə ziyalı ailəsində anadan olub. 1993-1998-ci illərdə N.Tusi adına Azərbaycan Dövlət Pedaqoji Universitetinin Filologiya fakültəsinin bakalavr pilləsi üzrə, 2001-2003-cü illərdə Azərbaycan dili və ədəbiyyatının tədrisi metodikası ixtisası üzrə magistr pilləsində təhsil alıb. Azərbaycan dili və onun tədrisi metodikası kafedrasına 2013-2014-cü tədris ilində fəlsəfə doktoru proqramı üzrə dissertant qəbul olunmuşdur.*

*“Azərbaycan dilinin tədrisi metodikasına dair istinad materialları” adlı dərs vəsaitinin və “Mən Tanrıma sevdalıyam” adlı şeir kitabının müəllifidir.*

## ŞƏKİ

Bir tarixdir hər cığırın, hər daşın,
Tarixlərin yaddaşısan, ay Şəki.
Hələ dəqiq bilən yoxdur yaşını,
Sən dünyanın yaşdaşısan, ay Şəki.

Səni görrəm, əgər baxsam hər hara,
Baş qoyaram sənə gedən yollara.
Sığınmısan əzəmətli dağlara,
Vətənimin daş-qaşısan, ay Şəki.

Ocağında neçə qəlbin közü var,
Hüseynxanın, Çələbinin izi var.
Hər daşında minlərlə ox izi var,
Sevincimin gözyaşısan, ay Şəki.

Bir incidir Karvansaray, Xansaray,
Çırağındır gündüz Günəş, gecə Ay,
Qüdrətini eldən-elə özün yay,
Könüllərin sirdaşısan, ay Şəki.

Bərəkətli, həm də barlı Qafqazın,
Həm yenilməz, həm vüqarlı Qafqazın,
Dədəm kimi başı qarlı Qafqazın,
Ətəyində naxışısan, ay Şəki.

Aynur kimi çoxdur şeir qoşanın,
Nişanına çox oxşardır nişanın.
Yurdun inci yurdu olan Şuşanın,
Həsrət çəkən qardaşısan, ay Şəki.

## MƏNİMLƏ EŞQDƏN DANIŞ

Mənimlə eşqdən danış,
Qoy qaynayıb coşum mən.
Sənə mahnılar yazım,
Xoş nəğmələr qoşum mən.

Mənimlə eşqdən danış,
Ruhuma bir qanad ver.
Mənim sevən könlümə
Sevgi dolu həyat ver.

Mənimlə eşqdən danış,
Qan damarda qaynasın.
Ürəyim pərvaz etsin,
Duyğularım oynasın.

Ay başına dolanım,
Nəyi dedim ki, yanlış.
Dedim ki, eşq əhliyəm,
Mənimlə eşqdən danış.

## SƏNİ XATIRLADIQCA

De, əzizim, sakitcə,
De ki, sevirəm səni.
Səni xatırladıqca,
Dəli edirsən məni.

Baxışların bir başqa,
Könlümün sarı simi.
Başqa birin sevmərəm
Səni sevdiyim kimi.

Söylə de ki, sevirəm,
Səni canımdan ötə.
Elə desən bəlkə də
Ayrılıq bizdən ötə.

Bax səmaya gör necə,
Ay nuruyla görüşür.
Səni xatırladıqca,
Qəlbimə atəş düşür.

Buludlar da qol-boyun
Rəqs eləyir küləklə.
Bu gecə qonağım ol,
Gəl “dərdləşək” ürəklə.

* * *

Gözündə güzgülənib,
Gözündə daraqlandım.
Sevgi yaşım gəlməmiş,
Eşq ilə maraqlandım.

Baxdım, güldüm, uğundum,
I?lmə-ilmə toxundum,
Kitab-kitab oxundum,
Əlində varaqlandım.

Yollara həsrət əkdim,
Uğur donlu böcəkdim,
Üstünə qoşun çəkdim,
Eşq ilə yaraqlandım.

Ruhu qərib quş oldum,
Durnalara qoşuldum,
Özgədən soruşuldum,
Özgədən soraqlandım.

Oxuyub aşıq oldum,
Sənə yaraşıq oldum.
Gözünə işıq oldum,
Evində çıraqlandım.

## HAVASINA

Bir dəli sevda var başımda bu dəm,
Oynayır sən adlı yar havasına.
Qara gözlərimdən bir odlu günəş,
Doğsunmu qəlbinin qar havasına?

Eşqim bülbül kimi yaza köklənib,
İsvəyə köklənib, naza köklənib,
Mənim arzularım saza köklənib,
Puçurum açılır bar havasına.

Aynuram, yox səndən başqa bir kəsim,
Bu sevgi ömürlük bəsimdi, bəsim,
Aləmə daha gur yayılsın səsim,
Dönməsin bu hava kar havasına.

## SƏN NECƏ DARIXDIN MƏNDƏN ÖTƏRİ

Ay mənim dərdimdən dəli olanım,
Sən necə darıxdın məndən ötəri?
Mənə rəsmin göndər darıxmağının,
Sən necə darıxdın məndən ötəri?

Heç mənsiz üşüyüb, soyuqladınmı,
Dünyanı gözündə ayaqladınmı,
Gecələr yuxuda sayıqladınmı,
Sən necə darıxdın məndən ötəri?

Axşamlar gec yatıb, erkən duranım,
Fəryad qoparanım, matəm quranım.
Ay məni gözləyib, boynun buranım,
Sən necə darıxdın məndən ötəri?

Özünü yordunmu suallar ilə,
Həlli çətin olan misallar ilə,
Yanıma uçdunmu xəyallar ilə,
Sən necə darıxdın məndən ötəri?

Sevdiyim, bir kəlmə sözüm var sənə,
De bilim, ürəkdən deyim yar sənə?
Məzara döndümü dörd divar sənə,
Sən necə darıxdın məndən ötəri?

## BU GECƏ YUXUMUN QONAĞI OLDUN

Qovuldu zülmətim, söküldü danım,
Sübhədək şipşirin keçdi hər anım,
Məni darıxmağa qoymadın, canım,
Bu gecə yuxumun qonağı oldun.

Təbiət elə bil lal kimi idi,
Bulud göy üzündə şal kimi idi,
Hər bir dəqiqəmiz bal kimi idi,
Bu gecə yuxumun qonağı oldun.

Dünyanı almırdın heç vecə, bildim,
Qəlbindən keçəni gör necə bildim,
Mən sevgi nədisə bu gecə bildim,
Bu gecə yuxumun qonağı oldun.

Yox olub getmişdi qayğılar tamam,
Alıb aparmışdı uyqular tamam,
Qəlbimi sarmışdı duyğular tamam,
Bu gecə yuxumun qonağı oldun.

Bu bəyaz gecənin şirinliyində,
Uzandım bir çinar sərinliyində,
Aynuram, yuxumun dərinliyində,
Bu gecə yuxumun qonağı oldun.